Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Ədalət.S.7.

№ 157 (2005) 17 oktyabr 2019-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Xurşidbanu Natavan həyatı və yaradıcılığı fonunda

(əvvəli ötən saylarımızda)

**Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm.**
**Fəda olum sənə, gəl, eylə imtəhan, ölürəm.**

**Fəraqdən gecələr yatmaram səbahə kimi,**
**Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm.**

**Bahari-hüsnün ara, gör, necə xəzanəm mən,**
**Bahar qönçəsi tək bağrım oldu qan, ölürəm.**

**Vərəq-vərəq dilü can hicrin ilə odlandı,**
**Misali- gəncəfə səd parə oldu can, ölürəm.**

**O xaki-payini mən aşıyan etmiş idim,**
**Vətəndən ayrı düşüb indi laməkan ölürəm.**

**Çəkərdim həsrətini, görmədim, xüdahafiz**
**Olubdu indi işim naləvü fəğan, ölürəm*.**

**Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,**
**Qədər bükub belimi, eyləyib kəman, ölürəm**

**Fəraqdən tükənib tabü taqətim billah,**
**Vüsalə yetməz əlim, zarü Natəvan ölürəm.**

F.Köçərlinin təbirincə desək, ”öz fərzəndi-əzizi Mehdiqulu xanın müfariqətində”(Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild.460 s. Bakı, ”Elm”, 1981. Səh.154) deyilən bu qəzəl o dövrdə geniş əks-səda vermişdir.

”Məclisi-üns”ün fəal iştirakçılarından biri olan İsgəndər bəy Rüstəmbəyov (1845. Şuşa-1918, Şuşa), çox qəribə olsa da, Natəvanın xahişi ilə onun bu 8 beytlik qəzəlinə 15 beytlik qəzəli ilə cavab vermişdir. Aşağıdakı beytlərə diqqət edək:

**Xudadan istərəm, ey can, hələ sən ölməyəsən.**
**Behəqqi-şahi Xorasan hələ sən ölməyəsən**

**Nəzərdə sanma ki, sən bir zəifə övrətsən,**
**Vətəndə rükərsən, ey Natəvan, (hələ) sən ölməyəsən.**

**Vilayət içrə vücudun bəsi qənimətdir.**
**Sən ölmə bari, qoy ölsün filan, hələ sən ölməyəsən**

Mirzə Rəhim Fənaya (1841, Şuşa-1931, Bakı) gəldikdə isə məsələ bir qədər başqa cür idi. Ağaseyid Hüseynə ərə getdiyi üçün X. Natəvana həcv yazan da, S.Ə.Şirvani tərəfindən cavabını alan da, əlacı üzülüb ”ağlaram” rədifli qəzəlini yazan da o idi. Natəvandan büsbütün əlinin üzüldüyünü görən M.R. Fəna yazırdı:

**Hicran edibdir könlüm evin qarət, ağlaram**
**Çün ağlamaq olubdur mənə adət, ağlaram**

**Bu giryədir açan dili- qəmgini-zarımı**
**Göz yaşım ilə yoxdur mənə halət, ağlaram**

**Ruyin fərağıdı səbəbi-girgeyi-Fəna**
**Didarına qoyubdu fələk həsrət, ağlaram ..**

(Bax. Poetik məclislər. Tərtib edəni: Nəsrəddin Qarayev.
Bakı, ”Yazıçı”, 1987.Səh. 222-223)

Mirzə Rəhim Fənanın nədən və kimdən ötrü ağladığını bilənlər ona yarızarafat, yarıgerçək bir şəkildə ”ağlama” rədifli qəzəllərlə cavab vermişlər. Bu müşairələrdən sonradan xəbərdar olan Natəvan ” ağlasın” rədifli bir qəzəllə həm onlara cavab vermiş, həm də M. R. Fənaya bir az da dağ qoymuşdur:

**Ey əhli-dil, Fənanı qoyun barı ağlasın,**
**Əğyarə çünki yar olub yarı, ağlasın.**

**Gizlin xəyalı var ki, belə ahü zar edir,**
**Öz halına qoyun ki bu diləfkarı, ağlasın.**

**Səsləndi Natəvan ki, ərbabi-qəm tamam,**
**Hali-Fənaya cəm olub elcarı ağlasın.**

(Bax. Poetik məclislər. Tərtib edəni: Nəsrəddin Qarayev.
Bakı, ”Yazıçı”, 1987.Səh.169)




Natəvanın bu qəzəlindən sonra əli yerdən- göydən üzülən M. R. Fəna hər şeyin fənaya getdiyini görüb yalandan da olsa, özünə haqq qazandırmaq məqsədi ilə qarayaxalıq edirdi:

**Bir kəs ki, qəm düçarı ola, ağlar, ağlamaz?**
**Ənduhü qüssə yarı ola, ağlar, ağlamaz?**

**Bir bülbülün ki, gülşəni pamali-xar olub,**
**Misli-xəzan baharı ola, ağlar, ağlamaz?**

**Yoxdur könüldən özgə həyatımda bir güman,**
**Hər kim ki, böylə yarı ola, ağlar, ağlamaz?..**

***

Əlbəttə ki, şairin şəxsi tərcümeyihalı həyatında baş verən hadisələrlə, lirik tərcümeyi halı ilə ovqatındakı həzinləşmələr, kövrəlmələr, sızıltılar və gizilitilər ilə müəyyən edilir.

İkinci əri Ağaseyid Hüseyndən olan oğlu Mir Abbasın 1885-ci ildə, 16 yaşında ikən (onu bəzən 17 yaşlı kimi də göstərirlər) vəfat etməsi Natəvanın ana kimi sarsılmasına, şairə kimi hüznlü qəzəllər yazmasına səbəb olur. Onun ”Getmə”, ”Gəl”, ”Ağlaram”, ”Ağlar”, ”Sənsiz”, ”Bu halətdə”, ”Əfsus” rədifli qəzəlləri bu qəbildəndir. ”Natəvan klassik lirik şeiri, buradakı sevən qadın tipajını tragik ana obrazı ilə zənginləşdirmişdir”, ”Natəvan məzara dediyi ağını beşiyə söylədiyi layla kimi oxuyur” (Bax. Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. 740 s.Bakı, ”Elm”, 2002. Səh. 214) deyənlərin nə qədər haqlı olduqları göz qabağındadır.

**Yanar canım , oğul, daim sənin dərdü fərağında,**
**Necə pərvanələr hər dəm yanar şəmin ayağında.**

**Sənin hicran odun, Abbas, dəxi çıxmaz ki, canımdan,**
**Səməndər tək yanar daim anan nari-fərağında.**

Və ya

**Kəcrəvişdir bu asiman, əfsus!**
**Bivəfadır cahanü can, əfsus!**

**Nə yaman dağ imiş oğul dağı,**
**Mənə üz verdi imtəhan, əfsus!**

**Mehrini kəsdi mən bəlakeşdən,**
**Oldu xak ilə mehriban,əfsus!**

Və ya da

**Keçibdi mövsüni-gül, getdi növbahar, əfsus!**
**Qalıbdı bülbüli-biçarə xarü zar,əfsus!**

**O gül ki, qibtə edərdi ona behişti-çəmən,**
**Tutubdu indi yer altında ol qərar,əfsus!**

**O gülbədən ki, ipək köynək incidərdi onu,**
**Olubdur indi o,torpaqla xakisar, əfsus!**

**Sən Allah, ay qara torpaq, onu əziz saxla!**
**Odur mənim gözümün nuru,ey məzar, əfsus!**

”Müqəddəs ana-oğul məhəbbətini də sənətkarlıqda, poetikada...dastan səviyyəsinə qaldıran, ...qəzəlin...üslub,dil, metafora, obraz, rəmz sistemini ana-oğul simvolikasına çevirən” Natəvan bu şeirləri ilə lirik ”uşaq ədəbiyyatı” tarixində balaca şedevrlər (Bax. Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. 740 s.Bakı, ”Elm”, 2002. Səh. 214) yaratmış olurdu. Vaxtilə həyat yoldaşının cənazəsi yerdən qaldırılarkən:

**...Bir an dayan, ey sarban, qoyma gedə bu karvan,**
**Ol sərvə uymuşdur könül, sərvi- rəvanımdır gedən.**

**Sədi, sənə layiq deyil yardan giley, ey bivəfa!**
**Gördüm mən ondan çox cəfa, səbrü tavanımdır gedən.**

deyərək fəryad qoparan Sədi Şirazi naləsi hələ də ürəkləri parçalamaqdadır.

Bəlkə də, tale oxşarlığına görə çiyinlərdə yırğalanan sevgili qadın tabutuna ağı söyləyən Sədi Şirazi fəryadı ilə oğul tabutuna ağı söyləyən Natəvan fəryadı bu məqamda üst-üstə düşürdü:

**Yıxıb bu könlüm evin, eyləyib viran, getmə!**
**Yoxumdu tabü təvan firqətə, cavan, getmə!**

**...Boyun bəlasın alım, sərv tək yıxılma,oğul,**
**Doyunca görməmişəm, getmə,bir zaman, getmə!**

**...Sabahadək oturub çəkmişəm cəfalarını,**
**Boyum bərabərisən indi əl aman, getmə!**

**Yəqin əl çəkəcək düstü aşinalərdən,**
**Divanətək düşəcək çöllərə anan, getmə!**

”Məclisi-fəramüşan”dan Mirzə Məhəmməd Katib, Əbülhəsən Şəhid, Mir Möhsün Nəvvab, ”Məclisi-üns”dən Mirzə Sadıq Piran, Şamaxıdan-”Beytüs-Səfa”dan S.Ə.Şirvani, Molla Ağa Bixud, Bakıdan- ”Məcməüş-şüəra”dan Hüseyn bəy Vəhdəti, Mirzağa Dilxun, Ağadadaş Müniri, Qubadan-”Gülüstan”ədəbi məclisindən Mirzə Möhsün Xəyali, Şəkidən İsmayıl bəy Nakam X.Natəvanın oğlunun vəfatı münasibətilə yazdığı şeirlərinə nəzirələr yazmış, ona təsəlli və təskinliklər vermişlər.

Talenin və qədər-qismətin sərt davranışlarına baxmayaraq, o, özünü toplayıb həyatın şirinliyini yaşamaq istəyirdi:

**Olmuşam dəhri-bəla içrə bu gün divanə mən,**
**Varmadım meyxanəyə, sındırmadım peymanə mən.**

**...Dövrü dönmüş dövr dövran etmədi kamımca, ah!**
**Düşmənimdir, bilməzəm kim netmişəm dövranə mən.**

**Varü yoxumdan qalan ancaq mənim bir can idi,**
**Natəvan, dəxi dedim:- Sərf eyləyim mehmanə mən.**

Və ya

**Şuri-eşqin başıma axırı sevda gətirir,**
**Bu müşəxxəsdi ki, eşq aşiqə sevda gətirir.**

**...Naqənin varmı şüuri bula aşiq kuyin?**
**Onu Məcnuna tərəf cəzbeyi-Leyla gətirir.**

**...Sidqi qəlb ilə misar etmiş idin can nəqdin,**
**Natəvan, müjdə bu gün qətlinə fərma gətirir.**

**(ardı növbəti sayımızda)**

***Vaqif Aslan***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR